

VAQİF YUSİFLİ

# «ŞEİR DƏ SÖZ DEMƏKDİR»

## («Tənqid tariximizdən»-dördüncü yazı)

Qələm ki, bu həyatda tərpənirkən ilk dəfə,
Sözdən yazdı, diqqətlə baxsan birinci hərfə.
Bu xəlfət pərdəsini açan zaman əlbəəl,
Söz oldu bu cahanda cilvələnən ilk gözəl.
O zamandan ki qələm yazı yazdı, dürr saçdı,
Bu dünyanın gözünü ilk dəfə sözlə açdı.
Ərşin bülbülləridir qələm çalan şairlər,
Qırğı hey səy etsə də, olmaz bülbülə bənzər.
Səfin önü, arxası o zaman ki, düzəldi,
Əvvəlcə peyğəmbərlər, sonra şairlər gəldi.

Dahi Nizami Gəncəvinin «Sirlər xəzinəsi» poemasından gətirdiyimiz bu şeir parçası orta əsrlər poeziyasında sözə, şairə, sənətə verilən ən bitkin bir tərifdir və ədəbi-estetik fikir tariximizin də poetik dillə ifadə olunan ilk nümunələrindən biridir. Nizaminin ən mötəbər tədqiqatçılarından olan Y.E.Bertels yazırdı ki: «Böyük Nizaminin poetikası haqqında düzgün fikir əldə etmək üçün ən doğru yol onun poetika və bədii əsərin xüsusiyyətləri haqqında söyləmiş olduğu bütün fikirləri ardıcıl bir surətdə nəzərdən keçirmək yoludur».

Nizamidən söz açan bütün tədqiqatçılar məhz bu yolu tutmuş, qədərincə olmasa da, dahi şairin sənət haqqında poetik düşüncələrindən söz açmışlar. «Xəmsə»də Nizaminin söz, şeir sənəti, şair şəxsiyyəti və təxəyyülü haqqında fikirləri o qədər zəngin və əhatəlidir ki, böyük bir tədqiqatın predmeti ola bilər. Akademik Kamal Talıbzadə haqlı olaraq qeyd edirdi ki: «Nizaminin ədəbi görüşlərindən bəhs etmək-XII əsr Azərbaycan və Yaxın Şərq ədəbi fikrinin ümumi istiqamətindən və əsas məsələlərindən bəhs etmək deməkdir, onun ümumi inkişaf səviyyəsini təyin etmək deməkdir». Təkcə XII əsrinmi? Fikrimizcə, sonrakı əsrlərin də ədəbi-estetik fikri Nizaminin sənətə baxışlarını meyar seçmiş, onu bu və ya digər dərəcədə inkişaf etdirmişlər. Daha doğrusu, sənətə estetik münasibətin «Nizami ölçüləri» orta əsrlərin tənqidi fikri üçün bir meyar rolunu oynamışdır. Bunları təxmini olaraq aşağıdakı kimi ümumiləşdirə bilərik.

### SÖZ İLK YARANAN VARLIQDIR, İLAHİDƏN GƏLƏN VƏHYDİR. ŞEİR İSƏ SÖZ SƏNƏTİNİN KAMİL İFADƏSİDİR.

Odur ki:
Söz nədir? Həm köhnə, həm təzə nemət,
Sözlə mənalanır ən böyük hikmət.
Sözdən gözəl övlad doğmamış, inan,
Varlığın anası hələ heç zaman.
Tanrı yaradandan dünyada ancaq
Heç şey qalmasa da, tək söz qalacaq.
İnsandan söz qalır fəqət dünyada,
Qalan nə vardısa gedəcək bada.

Sözün bu dominant rolu müqəddəs dini kitabımız olan «Quran»da da, bütün Şərq ədəbiyyatında da öz ifadəsini tapır. Nizamidə sözün missiyası genişdir, həyatın, varlığın elə bir nöqtəsi yoxdur ki, sözlə bağlanmasın, çünki söz Allahın –Yer üzünün, Göy üzünün, xilqətin yaradıcısı olan Xaliqin əmriylə («KON!) yaranıb, mövcudluğun əsasını qoyub. Neçə əsr sonra Füzuli də məşhur «Söz» qəzəlində buna işarə edəcək ki: «Xəlqə ağzın sirrini hər dəm qılır izhar söz, Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz?».Yaradan varlığı yoxdan yaradıb- bu möcüzəyə başda Nizami olmaqla bütün Şərq şairləri iman gətirmişlər. «Söz» kəlməsi Şərq şairləri üçün müxtəlif mənalar kəsb edib: elmlilik, zehni yaradıcılıq, nitq və ümumiyyətlə, hər cür informasiya Sözün missiyasına aiddir.

Şeir isə söz sənətinin kamil ifadəsidir və burada Həzrəti Məhəmmədin iki müdrik kəlamını xatırlatmaq istəyirəm: Birinci kəlam: «Şeir əzbərləyin, çünki şeir dilimizi düzəldir,danışığımızı, nitqimizi gözəlləşdirir». İkinci kəlam: Şeir də söz deməkdir-gözəli gözəl söz kimidir, pisi pis söz kimi».

Nizami deyirdi:
Söz bayraqdan daha çox əldə eyləyər zəfər,
Qılıncdan daha artıq qalxıb alar ölkələr.

### SÖZÜN XİRİDARI ŞAİRLƏRDİR. ŞAİRLƏR SÖZÜ ƏRŞ-ƏLAYA DA QALDIRA BİLƏR, UCUZLAŞDIRA DA BİLƏR.

Nizami deyirdi:
Ölçülüb biçilirsə incə fikir, incə söz,
Nə qədər gözəlləşər, olar ürəyincə söz.
Hər şeiri bəyənmə sən, yarat elə bir əfsun,
Dünyanın şah əsəri sənin qismətin olsun.

Nizaminin əsərlərində iki şair obrazı ilə qarşılaşırıq. Birincilər:

Peyğəmbərlərdən sonra gələn, sözü şeirə, şeiri poeziya zirvəsinə qaldıran şairlər. İkincilər: öz şeirlərini sultanların dilənçi payına satan, «qızıl üçün, zər üçün sinov gedən şairlər».

Nizami ilk dəfə olaraq ədəbiyyatda mükəmməl ŞAİR OBRAZI yaradır-ondan əvvəl Xaqani buna müəyyən dərəcədə cəhd etmişdi. Şairlərin peyğəmbərlərdən sonra böyük nüfuz sahibi, xalqın iman gətirdiyi ən kamil insan kimi təqdim olunması orta əsr poeziyasından qırmızı xətt kimi keçir.

Ancaq Nizaminin təsvirində Şair obrazı ideallaşdırılır və bu ideallaşdırmada Nizami gördüyü yox, görmək istədiyi Şairin portretini yaradır. Kimdir əsl şair- dövrünün, zəmanəsinin kamil insanı?

Şairin süfrəsində şirin xurmalar ki, var,
Xurma deyil, bəlkə də ürək parçasıdırlar.
Şairin ləl dodağı o zaman ki, açılar,
Yeddi göyün, Günəşin yaxasını parçalar.
Şair qozbel fələyi qul eyləyər özünə,
Qulluqdan azad olar, özü köçsə sözünə.
Şairin xoş nəfəsi cana məhrəm, qəlbə yar,
Dilsizlərə dil verər, susmazları susdurar.

Nizami dövründə şairlərin sarayda yaşaması, onların hökmdarlara mədhiyyələr yazması heç də təsadüfi deyildi. «Ehtiyac qul edər qəhrəmanı da». Amma sarayda yaşayan şairləri birmənalı şəkildə pisləmək, onlara istedadsız damğası vurmaq doğru olmazdı. Məgər Əbülüla istedadsız idimi? Ya Xaqani?

Məlum məsələdir ki, mədhiyyəçilik orta əsr poeziyasında normal qarşılanan, təkcə saray ədəbiyyatında deyil, ondan kənarda da qəbul edilən, artıq ənənəvi hala keçən bir təmayül idi. Nizaminin də, Xaqaninin də, ondan öncə Qətranın da mədhiyyələri olmuş və mədh olunan hökmdarlar layiq oldu-olmadı ən parlaq təşbihlərlə süslənmişlər. «Şairin məqsədi-şahı hamıdan yaxşı vəsf etməkdir. Bunun üçün o, bütün ustalığını işə salmalı, təbi, təxəyyülü süni surətdə hərəkətə gətirməli, ehtirası süni surətdə coşdurmalıdır. Burada yalançı ehtizaz, yalançı vəcd, yalançı səmimiyyət hökm sürür» (Asif Əfəndiyev). Təbiidir. Amma təkrar edirik, bu, orta əsr poetik təfəkkürünə yad təmayül deyildi.

Nizamini özü mədhiyyə yazdığı halda, onu birbaşa mədhiyyəçilik əleyhinə mübarizə aparan bir şair kimi düşünmək doğru olmazdı, o, daha çox sənətini pula satan, istedadsız, elmsiz, indiki ifadə ilə desək, qrafoman şairlərə qarşı çıxırdı. Çünki onun fikrincə, hər qafiyəli söz yaradana şair demək olmaz! Şair maddi cəhətdən hökmdarlardan asılı olmamalıdır, şair qazanc dalınca sürünməməlidir! Şeiri azadlıqdan məhrum etmək olmaz!

Ağıl başımdan çıxır.Görün, sözbəz nə qədər,
Sözü abırdan salır şeir, söz seynəyənlər.
Qızıl sözü qızıla dəyişənlər alçalır,
Zülmətə işıq salan ləli verir, daş alır.
Madam ki, baldır sözün, ucuz satma onu sən,
Rəvamı söz şəhdini çibinlərə verəsən?
Sultanın qızılından zərli əba geyənlər,
Bir gün çörək yerinə dəmir çeynər, daş yeyər.

### ŞAİRLƏR HƏQİQƏTİ, GERÇƏKLİYİ TƏSVİR ETMƏLİDİRLƏR.

Dünya romantik poeziyasının ən qüdrətli nümayəndələrindən olan Nizami – o Nizami ki, yaradıcılıqda romantik təxəyyülə xüsusi önəm verirdi- ağla sığmayan sözü qəbul eləmirdi, şairləri doğrunu, həqiqəti yazmağa səsləyirdi. İstər müasir gerçəkliyi təsvir elə, istərsə də tarixi hadisələri qələmə al...

Var doğru yazmağa, madam ki, imkan
Neçin gəlsin gərək ortaya yalan?

«Həqiqəti yazmaq»- yəni elə yazmaq ki, oxucunu inandıra biləsən, «Yalanı necə məharətlə işlətmək üsulunu başqa şairlərə ən çox öyrədən Homerdir»- bu, Aristotelin fikridir və füzulişünas, görkəmli dilçi Samət Əlizadə yazır ki, Füzuli də Azərbaycan poeziyasında şairlərə bədii yalanı ən çox öyrədən sənətkardır. Amma Füzulinin ustad sandığı Nizami bu işdə daha məharətli idi. «Doğruya azacıq bənzəyən yalan, Yaxşıdır yalana bənzər doğrudan»- öz romantik təxəyyülü ilə «Xosrov və Şirin»i, «Yeddi Gözəl»i, «İskəndərnamə»ni də bu poemalardakı obrazları da, tarixi hadisələri də elə təsvir etmişdi ki, onları tarixi təhrif və yalan kimi qəbul etmək mümkün deyildi...

Nizaminin sənət, sənətkar, söz və ümumən ədəbi-estetik görüşləri haqqında bu qeydlər yalnız həmin mövzuya kiçicik bir giriş oldu...

*2021*